# Lətif Kərimovun

## yaradıcılığında ornamentalizm

*Azərbaycan professional xalça sənəti məktəbinin önündə Azərbaycan SSR-nin xalq rəssamı, Azərbaycan SSR əməkdar incəsənət xadimi, I dərəcəli Dövlət mükafatı laureatı Lətif Kərimovun yaradıcılığı durur. Milli mədəniyyətimizin bədii xəzinəsinin zənginləşməsində onun xidmətləri böyükdür.*

*Onun adı Azərbaycanın bədii mədəniyyəti tarixində respublikada professional xalça sənətinin banisi, xalça tədqiqi işini müasir elmi biliklər səviyyəsinə qaldırmış alim kimi daxil olmuşdur. İdrak fəaliyyətinin universallığı və milli mədəniyyət, dilçilik sahəsində dərin biliklər Lətif Kərimovun yaradıcı və elmi təcrübəsinə təsir göstərmişdir.*

Azərbaycan xalçası və xalq-tətbiqi sənəti dövlət muzeyinin yaradılması onun adı ilə bağlıdır. O, bu muzeyin elmi məsləhətçisi idi. O, həmçinin Azərbaycan Elmlər Akademiyasının Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində, - eyni zamanda tərtibatçılar kollektivində aparıcı rəssam idi – Azərbaycan Tarixi Dövlət Muzeyinin və R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin, Vaşinqtonda Tekstil, Londonda Viktoriya və Albert, İstanbulda Topqapı muzeyinin elmi məsləhətçisi olmuşdur. Çoxsaylı simpoziumlarda iştirak etmişdir.

Eyni zamanda Lətif Kərimovun yaradıcılıq yolunun qeyri-adiliyi ondan ibarətdir ki, o, öz dövrünün misilsiz ornamentalist rəssamı, çoxsaylı ornamentlərin yaradıcısı, unudulmuş ornament motiv və naxışlarının bərpaçısı olmuşdur. O, çoxsaylı həm ornamental, həm də süjetli-tematik orijinal kompozisiyaların müəllifi idi.

Lətif Kərimov bütün biliklərini, həmçinin tədqiqat təcrübəsini «Azərbaycan xalçası» adlı üçcildli elmi monoqrafiyasında ifadə etmişdir. Bu əsərdə xalçanı yalnız məişət əşyası kimi deyil, həm də incəsənətin xüsusi bir sahəsi kimi hərtərəfli öyrənməyə imkan var.

Əsərin əhəmiyyəti nədən ibarətdir:

Lətif Kərimov ilk dəfə olaraq istənilən Şərq xalçasının tərtibatının sərt strukturunu açmışdır, onun tərkib hissələrinin təhlilini vermişdir. 1300 cədvəldə demək olar ki, bütün Azərbaycan ornamentləri verilmişdir. Onlar motivlərinin xarakterindən asılı olaraq qruplara ayrılmışdır.

«Kitabda işlənmiş təsnifat sxemi bir kəşfdir» - M.Tərlanov yazır2.

İkinci və üçüncü cildlərdə ilk dəfə olaraq Azərbaycan xalçalarının ornament kompozisiyaları hərtərəfli verilmiş və təhlil edilmiş, Azərbaycanda xalça sənətinin əsas tarixi mərhələləri barədə və bir çox başqa məlumatlar verilmişdir.

Lətif Kərimov bütün həyatını xalçaya həsr etmişdir. Hələ uşaq ikən o, xalçada ilk düyününü vurmuş və bu düyün onun bütün həyatının işinə çevrilmişdir.

Lətif Kərimovun yaradıcılığı çoxşaxəli idi. Onun əsas xətti memarlıqda, parça, tikmə, saxsı, dulusçuluq məmulatlarında istifadə olunan Azərbaycan ornamentinin tədqiqi idi.

1937-1939-cu illərdə o, Moskvadakı Ümumittifaq kənd təsərrüfatı sərgisinin Azərbaycan pavilyonu üçün memarlıq ornamentləri üzərində işləmişdir.

Rəssamın digər iri memarlıq-bəzək işi 1940-cı ildə Bakıda Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat Muzeyinin tərtibatı olmuşdur.

Yalnız dekorativ – tətbiqi sənətdə deyil, həm də ümumi mədəni həyatımızda bir çox təşəbbüslər Lətif Kərimovun adı ilə bağlıdır. O, öz yaradıcılığı vasitəsilə Avropanı müasir Azərbaycan xalça sənəti ilə tanış edən demək olar ki, ilk professional ornamentalist – rəssam, xalça rəssamı idi – Paris (1937) və Nyu-York (1936) şəhərlərində sərgilər. 1950-ci ildə Stalinin yetmiş illiyinə həsr edilmiş xalçanın müəllifi birinci dərəcəli Stalin mükafatı aldı. Sovet incəsənətində belə yüksək mükafata dekorativ-tətbiqi sənət əsəri ilk dəfə layiq görülürdü.

Lətif Kərimovun 50-ci illərdən başlayaraq və sonrakı dövrlərdə ornamentli xalçalarından danışarkən qeyd etmək lazımdır ki, bu vaxta qədər

onun yaradıcılıq yolu artıq müəyyənləşmişdi. Rəssam özünün çoxsaylı fərdi ornament kompozisiyalarını yaradırdı. Hələ 20-30-cu illərdə o, fərdiliyi və professionallığı ilə fərqlənən bir neçə xalça kompozisiyaları yaratmışdı. Qeyd etmək lazımdır ki, 20-30-cu illərdə tamamilə yeni ornamentli xalça kompozisiyaları nadir hallarda yaradılırdı. Hələ bu sahədə zəruri biliklərə və təcrübəyə malik rəssam kadrlar yox idi.

Professional rəssam tərəfindən yaradılmış ilk rəsmlərdən biri xalça ustası və ornamentalist Lətif Kərimovun 1932-ci ildə yaratdığı «Əfşan» xalça kompozisiyası idi.

Rəssamın yaradıcılıq məhsuldarlığı insanı heyran edir. Yalnız 50-ci illərdə çoxlu sayda ornamentli xalçalar yaradılmışdır: «Ləçək-turunc» (1950), «Şah Abbasi» (1951), «Lampə-triptix», «Qoca», «Balıq», «Yeni Quba» (1952), «Pambıq naxış» (1952), «Yeni xalça» (1952), «Araz» (1952), «Ağaclı» (1953), «Qarabağ» (1955), «Kaşı» (1956), «Qızıl xalça» (1958), «Minalı» (1959) və s.

Lətif Kərimovun ornamentli xalçalarını iki hissəyə bölmək olar:

I – klassik motivlərin fərdi-yaradıcı surətdə təfsir olunduğu xalçalar və II qrup rəssamın tamamilə yeni kompozisiyaları.

I qrupa aşağıdakı ornamentli xalçalar aiddir: «Şah Abbasi», «Ləçək-turunc», «Ağaclı», «Qarabağ» və s.

Lətif Kərimov «Azərbaycan xalçası» (II c) kitabında «Qarabağ» xalça qrupunun kompozisiya tərtibatından danışarkən yazır ki, onun anası Telli xanımın 1885-ci ildə toxuduğu «Qarabağ» xalçası öz gözəlliyi və ornamentlərin əsrarəngiz ahəngi və rəngarəngliyi ilə rəssamın ürəyində dərin iz buraxmışdır. Bizə elə gəlir ki, 1955-ci ildə rəssamın yaratdığı «Qarabağ» xalçası anasının təsiri altında toxunmuşdur. Bu xalçada doğma torpağın gözəlliyi öz əksini tapmışdır.

Bir neçə onilliklər ərzində Lətif Kərimovun yaratdığı ornamentli xalçalar onun bədii yaradıcılığının səlis xüsusiyyətlərini əks etdirir – rəng, kompozisiya, həmçinin ornament həllində harmoniya axtarışı, klassik xalça kompozisiyalarının incəliklərinə qədər tədqiqi və onların əsasında müəllif təxəyyülünün, xalça sənəti problemlərinin aydın izahının üzə çıxdığı yeni kompozisiyaların yaradılması. Rəssamın ornamentli xalçalarının müxtəlif variantlılığı və müxtəlif variantlarda təkrar olunması şablon əsasında qurulmamışdır. O, bir-birinə oxşamayan tamamilə yeni kompozisiyalar yaratmışdır. Onun yaradıcılığında Azərbaycanın uzun əsrlər boyu formalaşmış xalça qrupları, məktəblərinin bədii məziyyətlərinin dərk olunması prosesi gedir. O, hər hansı bir məktəbin bədii metodlarına üstünlük vermir (bir çox xalça rəssamlarının etdiyi kimi), müxtəlif qruplardan ən effektli cəhətləri əxz edərək və öz estetik təxəyyülündən keçirərək orijinal kompozisiyalar yaradır.

Lətif Kərimov öz əsərlərində istedadlı sənətkar və mahir ornamentalist – rəssam kimi göz qabağına gəlir. Hər bir ornamentə, motivə müəllif öz ürəyini qoymuşdur. Onlar çox ifadəli, dəqiq və qeyri-adidir. Ornamentli kompozisiyalar dəqiq düşünülmüşdür və ona görə də onun hər bir xalçası ayrı-ayrılıqda ornamentlər vasitəsilə sintezlə harmoniyanın və ümumi kompozisiyada rəngin nailiyyətidir.

Lətif Kərimovun süjetli xalçalarından danışarkən qeyd etmək lazımdır ki, rəssam həm ornamentli, həm də süjetli xalçalarda aktual məzmun, kompozisiya tərtibatında yeni bədii metodlar axtarışında olmuşdur. Onun yaradıcılığının bu başlıca prinsipi bir çox yüksək professional əsərlərin yaradılmasına stimul vermişdir. Lətif Kərimov çoxsaylı portret xalçalarının müəllifidir. Onları üç qrupda birləşdirmək olar. Birinci qrupa iri ölçülü xalçalar aiddir. Burada mərkəzi gölün çoxelementli kompozisiyası və haşiyə hissəsində yerləşən əlavə kiçik tematik kompozisiyalar fonunda portreti yaradılan obraz açılır (Stalin və Leninin portretləri olan xalçalar). Bu cür xalçalar çoxelementli kompozisiya tərtibatına malik süjetli xalçalara aid edilə bilər. İkinci qrupa aid olan xalçalarda obraz şərti müstəvi formasında açılır. Üçüncü qrup obrazın realist təsviri verilmiş adi ölçülü xalçalardır.

Portret xalçalarının həllinə çoxplanlı münasibət rəssamın yaradıcılığını zənginləşdirir.

Onun hər xalçasında dekorativ bəzək müxtəlif üsullarla əldə edilir. Haşiyənin naxışları rəssamın improvizasiyasının nəticəsidir. Əsərlərdə haşiyə ilə mərkəzi gölün, rəng və ornamentin vəhdəti hökm sürür.

Lətif Kərimovun yaradıcılığı Azərbaycanın xalça sənəti inkişafında müəyyən mərhələ və bir çox gənc xalça rəssamlarının yaradıcılıq dəst-xəttinin formalaşmasının əsasını təşkil edir.

**Aidə Sadıqova,**
***sənətşünaslıq namizədi***

**Ədəbiyyat**

1. Абдуллаева Н. Ковровое искусство Азербайджана. – Б., «Элм», 1971.

2. Тарланов М. Художественный календарь «100 памятных дат». – М., «Советский художник», 1976.